**Zibeydə Arif qızı Şəkərəliyeva**

**UOT:338.45; JEL:L19;L50.**

# Pandemiya dövründə qeyri-neft sektorunun vəziyyəti və diversifikasiyası

***Xüiasə***

Məqalədə qlobal çağrışlara cavab *verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtişadiyyatda mövqeyi gücləndiriləcək və respublikamız yüksək gəlirli ölkələr qrupuna daxil olacaq amilləri araşdırılır. Bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanmış və reallaşdırılmışdır. Xüsusilə, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, anbarlar istifadəyə verilmiş, yollar çəkilmiş, modern müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış, COVİD 19 pandemiyası dövründə ixracın stimullaşdırıcı tədbirləri həyata keçirilmişdir. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik davamlı, və yüksək artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılmasını təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemləri həll edə bilməmişdir. Qeyrı-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifıkasiyalaşdırılması və modemləşdirilməsi prosesləri başa çatdırlmalı, yeni texnologiyaların innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialına obyektiv qiymətləndirilməsi olduqca vacibdir.*

***Açar sözlər:*** *qeyri-neft sektoru, COVİD-19 pandemiyası, ixracın vəziyyəti, ixracın diversifikasiyası, stimullaşdırıcı tədbirlər*

## Giriş

Respublikamızın iqtisadi prioritetlərinin milli iqtisadi maraqlar əsasında formalaşdırılması prosesləri 2000-ci illərin əvvəllərindən başlayaraq, xeyli intensivləşmişdir. Azərbaycan bu dövrdə özünün iqtisadi inkişaf modelini formalaşdıra bilmiş, iri regional layihələrin təşəbbüskarı və həlledici tərəfdaşı kimi çıxış etməyə başlamışdır. Respublikaya neft gəlirlərinin axını ilə əlaqədar olaraq, milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi, ayrı-ayrı sahələrin modernizasiyası prosesləri intensivləşdirilmiş, neft sektorunun inkişafı onu ölkə iqtisadiyyatının lokomotivinə çevirmiş və bu imkandan bəhrələnməklə, Azərbaycanda iqtisadi siyasətin daha iri miqyaslı hədəfləri özündə birləşdirən modeli işlənib hazırlanmış, ölkənin xarici ticarət siyasəti əhəmiyyətli səviyyədə güclənmişdir.

## Ölkədə qeyri-neft sektorun inkişafı

Azərbaycanda 2020-ci ildə 72,5 milyard manatlıq ÜDM istehsal edilmişdir. İqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər 2,6%, neft-qaz sektorunda isə 7% azalmışdır. ÜDM istehsalının 33,7 faizi sənaye, 11,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM- nin 9,7 faizini təşkil etmişdir.Əhalinin hər nəfərinə düşən ÜDM 7262,8 manata bərabər olmuşdur (6). İqtisadiyyat Nazirliyinin proqnozlarına

©Zibeydə Arif qızı Şəkərəliyevai.f.d.,dos. AzDİU. E-mail:zibeydashakaraliyeva1977@gmail.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

görə 2022-ci ildə ÜDM artımı 5,1 faiz proqnozlaşdırılır. Bütövlükdə milli iqtisadiyyatın artım tempinin zəifləməsi, ixracın həcminin artmasına imkan verən mənbələrin məhdudluğu, neft sektorunun ixrac potensialının real imkanlarından istifadənin pik səviyyəsinə çatdığı amilləri nəzərə alınmaqla, Azərbaycanda qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsi problemlərinin həllinə sistemli yanaşmanın vaxtının gəlib çatdığı və adekvat tədbirlərin görülməsi aktuallığı ilə xeyli diqqət cəlb etməyə başlamışdır.

Azərbaycanda son 10 ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərmanları və Sərəncamları verilmiş, Dövlət Proqramları(4dövlət proqramı), Strategiyalar və Konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. Bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanmış və reallaşdırılmışdır. Xüsusilə, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş,logistik mərkəzlər,anbarlar istifadəyə verilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, yollar çəkilmiş, modern müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış və s. stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik davamlı və yüksək artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılmasını təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemlərin bəziləri hələ də həll edə bilməmişdir (1).

Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neftkimya maşınqayırması, metallurgiya) zəif istifadə davam edilir. Güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük komponentlərinə malik olan bir sıra kənd təsərrüfatı və emal məhsullarının ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir. Ölkənin qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi aşağıdır. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, yeni texnologiyalarñn innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir. Bu proseslərdə strateji vəzifələrdən biri də müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının dərin təhlilinin aparılması, uyğun meyarlar çərçivəsində bu sahənin imkanlarının müəyyənləşdirilməsi, ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin aşkar edilməsidir.

**Qeyri-neft sekrounda müasir sahələrin təşkili xüsusiyyətləri**

Qeyd etmək lazımdır ki, respublikada sənaye parkları və məhəllələrinin yaradılması bütövlükdə emaledici sənayenin inkişafında mühüm rol oynadı. Respublikada beş sənaye parkı yaradılıb: Sumqayıt Kimya Sənaye Parkı ən böyük parkdır (5). Parklar əvvəlcə klasterizasiya əsasında yaradılıb. Bu, dünyada çoxdan bəri tətbiq olunan və bəhrəsini verən mütərəqqi bir həldir. Klasterin mahiyyəti, məhsulları bir-birini tamamlayan və ümumi xammal bazasında fəaliyyət göstərən bir-biri ilə əlaqəli istehsalat qruplarının yaradılmasıdır. İstehsalatın klasterləşdirilməsindəki əsas iqtisadi faydalardan biri nəqliyyat xərclərinin son


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dərəcədə azalmasıdır (2). Respublika ərazisi işğaldan azad edildikdən sonra Qarabağda Sənaye Parkının yaradılması qərar alındı. Belə ki, inşası davam edən Ağdam sənaye parkı isə inşaat materialları, qida və yüngül sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşacaqYeni yaradılan Ağdam sənaye parkı işğaldan azad edilmiş ərazilərin bərpası üçün müstəsna rol oynayacaq. Tədqiqatlar göstərir ki, dünya ölkələrində sənaye klasterizasiyası həm dövlət, həm də özəl texnoparklar və sənaye parklarının yaradılması, inkişafı yolu ilə baş verir. Sənaye parkı mərkəzləşdirilmiş şəkildə inkişaf etmiş və istehsalat, anbar, ofis binaları, həmçinin müvafiq kommunikasiya və bir neçə rezidentin yerləşdiyi infrastruktur ilə idarə olunan ərazidir. Azərbaycanda dövlət zəruri infrastrukturun yaradılmasını, o cümlədən rezidentlərin torpaq sahəsi, nəqliyyat və kommunal rabitə - elektrik, qaz, su xətləri ilə təminatını həyata keçirir.

Ölkə qanunvericiliyinə uyğun olaraq sənaye parklarının rezidentləri üçün əlavə təşviq kirayə haqqının aşağı olması, gəlir və əmlak vergilərindən 10 il müddətinə, istehsal məqsədli avadanlıq və texnologiyaların idxalı üçün isə ƏDV və idxal rüsumlarından 7 il müddətinə azad olunurlar. Sənaye parkları və məhəllələrinin, həmçinin aqroparkların fəaliyyətinin daha yaxşı koordinasiyası, yatırımların, xüsusən birbaşa xarici investisiyanın cəlb olunması üçün 2021-ci ci ilin yanvar ayında Prezidentin sərəncamı ilə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Xüsusi iqtisadi zonaların məqsədi innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün əlverişli şərait yaratmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluq səviyyəsini artırmaqdır. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Zonaların İnkişafı Agentliyinin məlumatına görə, 4 sənaye parkının rezidentləri tərəfindən 8000-ə yaxın iş yeri yaradılıb və gözlənilən 3,8 milyard dollardan 3,5 milyard dollar investisiya yatırılıb. Hazırkı dövrə qədər respublikada fəaliyyət göstərən sənaye kvartallarına 73 milyon manatdan çox sərmayə qoyulub, 286 iş yeri yaradılıb. Azərbaycanın müxtəlif regionlarındakı aqroparklara ümumilikdə 1,5 milyard manat yatırım qoyulmuşdur ki, bunun da 293 milyon manatı müvafiq infrastrukturun inkişafı üçün ayrılan dövlət investisiyasıdır, həmçinin güzəştli kredit şəklində 173 milyon manat verilib (4).



Ölkədə 2021-ci ilin ilk yarımilində iqtisadi zonaların rezidentləri tərəfindən 824 milyon manat dəyərində məhsul istehsal edilib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 38 faiz çoxdur. Eyni zamanda 268 milyon manat dəyərində məhsul ixrac edilmişdir. Ümumilikdə, bu günə qədər iqtisadi zonalarda istehsalın ümumi həcmi 4,2 milyard manat təşkil edib ki, bunun da 1,1 milyard manatı ixracın payına düşüb. Hal hazırda qarşıda duran vəzifələrdən biri milli təsərrüfatın davamlı diversifikasiyası üzrə hədəf vəzifəsi dayanır. Belə ki, qeyri-neft ixracının bundan sonra daha da artmasına şərait yaradacaq konsepsiyanın hazırlanması nəzərdə tutulur. Belə ki, 2025-ci ilə qeyri-neft ixracının həcminin iki dəfə artırılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin məlumatlarına görə qeyri-neft sektorunun ixrac potensialının inamla və sürətlə bərpa edilir. Belə ki, cari ilin yanvar-iyun aylarında qeyri-neft ixracı keçən ilin ilk yarımilinə nisbətən 27,1 % artıb və pul ekvivalentində 1,16 milyard dolları keçib. Eyni zamanda, qeyri-neft sənayesi məhsullarının ixracı 40,1 % artıb.

Tədqiqatlar göstərir ki, iqtisadi diversifikasiyanın səviyyəsinin_müəyyən edilməsində əsas göstərici ixracın diversifikasiyası göstəricisidir. Azərbaycanın ixracının əmtəə strukturu baxımından təhlil edilməsi vacibdir. 2012-2017-ci illər ərzində neft-qaz sektoru üzrə ixracın həcmində neft qiymətlərinin azalmasının təsiri ilə əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, xam neftin əsasını təşkil edən mineral məhsulların ixracının həcmi ABŞ dolları ifadəsində 2016-cı ildə 2012-ci illə müqayisədə 2,8 dəfə azalaraq 8 milyard dollar səviyyəsindən aşağı düşmüşdür. Bunun səbəbi neftin qiymətinin dünya bazarlarında 3 dəfəyə qədər azalması

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olmuşdur. Bu illər ərzində hər il ixrac edilən mineral məhsulların həcmində azalma müşahidə edilmişdir. Sonradan neft qiymətlərinin artması nəticəsində 2019-ci ildə mineral məhsullarının ixracının həcmi 17,8 milyard dollara qədər artmış və pandemiyanın təsiri nəticəsində 2020-ci ildə 12 milyard dollara qədər azalmışdır.

**Cədvəl 1.**

**İxracın əmtəə strukturu (milyon ABŞ dolları)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Mineral** | 22281 | 22256 | 20194 | 11203 | 7987 | 12404 | 17924 | 17852 | 12028 |
| **Digər** | 1627 | 1720 | 1635 | 1526 | 1156 | 1408 | 1565 | 1783 | 1712 |
| **Cəmi** | 23908 | 23975 | 21829 | 12729 | 9143 | 13812 | 19489 | 19635 | 13740 |

Mənbə: Azerbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları. 2021.

İxracın diversifikasiya səviyyəsinin daha dəqiq müəyyənləşdirilməsi üçün mineral məhsulların və digər məhsullar qrupuna daxil olan əmtəələrin ixracda payının təhil edilməsi vacibdir. Son 10 ildə ümumi mənzərə ondan ibarətdir ki, ixracda mineral məhsulların payı azalmış, əksinə olaraq digər məhsulların payı artmışdır. Belə ki, mineral məhsulların ixracda payı 2012-ci ildə 93,2% səviyyəsində olduğu halda 2017-ci ildə 89,8%-ə qədər azalmışdır və sonra müəyyən qədər artsa da 2012-ci ildəki səviyyəsinə çatmamışdır. Bu azalmanın formalaşması neft qiymətlərinin aşağı düşməsi ilə yanaşı iqtisadiyyatın diversifikasiyası istiqamətində atılan addımlar ilə bağlıdır. Belə bir qənaətə gəlmək olar ki, diversifikasiya siyasəti özünü doğrultmaqdadır. Son dövrdə respublikada əmtəə qruplarının ixracda payında ən böyük payı bitki mənşəli məhsullar təşkil edir.



**Cədvəl 2.**

**İxracın əmtəə strukturu (%)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Mineral məhsullar** | 93,2 | 92,8 | 92,5 | 88 | 91.4 | 89,8 | 92 | 90,9 | 87,5 |
| **Bitki mənşəli məhsullar** | 1,3 | 1.3 | 1,5 | 2,6 | 2,9 | 3.8 | 3 | 3,2 | 4,5 |
| **Az qiyməti metallar və məmulatları** | 0,9 | 0.8 | 0.6 | 1 | 1,7 | 1,8 | 1 3 | 1.2 | 1 .3 |
| **Hazır ərzaq məhsulları, içkilər, tülün** | 1.3 | 1.4 | 1,4 | 2.2 | 0,9 | 0.8 | 0,5 | 0.5 | 0.7 |
| **Plastik kütlələr, kauçuk, rezin** | 0.5 | 0.5 | 0,7 | 0.9 | 0.7 | 0.7 | 0.6 | 0.9 | 1,2 |
| **Mirvari. qiymətli daşlar və metallar** | 0,3 | 0.3 | 0.4 | 0.7 | 0.8 | 1 | 0.8 | 0.9 | 1.5 |
| **Heyvan və ya bitki mənşəli yağlar** | 0.9 | 1 | 0,9 | 1.2 | 0.1 | 0.1 | 0,1 | 0,1 | 0,2 |
| **Kimya sənaye məhsulları** | 0,7 | 0,2 | 0,3 | 0.6 | 0,4 | 0,6 | 0,4 | 0,5 | 0,6 |
| **Nəqliyyat vasitələri, uçan aparatlar** | 0,2 | 0.4 | 0 | 0 | 0.5 | 0,1 | 0 | 0,1 | 0 |
| **Toxuculuq materialları və məmulatları** | 0,2 | 0.2 | 0,2 | 0.3 | 0.3 | 0,6 | 0,7 | 0,9 | 1,3 |
| **Gön, dəri, xəz və məmulatları** | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0.1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları, 2021.

İxracın diversifikasiyası ilə bağlı digər əhəmiyyətli məqam diversifikasiyanın ölkələr baxımından hansı səviyyədə olmasıdır. Qeyd etdiyimiz kimi ixracın diversifikasiyasının siyasi üstünlükləri də vardır(3). Bu baxımdan diversifikasiyanın ölkələr üzrə hansı səviyyədə olmasını təhlil edək. Son on il ərzində ixracda ən böyük paya sahib olan ölkə İtaliya olmuşdur və onun payı 2013-cü ildə 25% səviyyəsində olduğu halda, 2016-cı ildə 16%-ə qədər azalmışdır. 2017-ci ildə isə İtaliyanın ixracda payı 1,9 dəfə artaraq son on ilin ən yüksək həddinə 30,1% səviyyəsinə çatmışdır. Sonrakı illərdə azalma baş versə də, 2020-ci ildə 30%-

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dən yüksək olmuşdur. İtaliyanın payının yüksək olması neft ixracı ilə bağlıdır. Mineral məhsullar ixracda böyük paya sahib olduğundan, İtaliyaya neft məhsullarının ixrac edilməsi onun ixracda payının yüksək olmasına gətirib çıxarır. İtaliya ilə yanaşı İsrail də Azərbaycan neftinin alıcısı olduğundan o da ixracda böyük paya sahibdir. 2015-cı ildən Türkiyəyə qaz ixracının artması isə bu ölkəni ən çox məhsul ixrac edilən ikinci ölkəyə çevirmişdir. 2015 və 2016-cı illərdə Türkiyənin ixracda payı 12% səviyyəsində olduğu halda 2017-ci ildə azalaraq 9,9% səviyyəsinə düşmüşdür.

İqtisadiyyatın diversifikasiya səviyyəsinin müəyyən edilməsi üçün əhəmiyyətli istiqamətlərdən biri də əmək bazarının iqtisadı fəaliyyət növləri üzrə bölgüsüdür. Bu eyni zamanda iqtisadı fəaliyyət növlərinin əmək məhsuldarlığı, əmək tutumluluğu və dəyər yaratma baxımından nə dərəcədə səmərəli olduğunu göstərir. ÜDM-dən və ixracdan fərqli olaraq əmək bazarında neft sektorunun payı yüksək deyildir. Burada ən çox paya kənd təsərrüfatı malikdir. Belə ki, nəzərdən keçirdiyimiz dövr ərzində kənd təsərrüfatı sahəsinin əmək bazarında payının ən vüksək həddi 2012-ci ildə (37,7%), ən aşağı həddi isə 2019-cu ildə (36%) müşahidə edilmişdir. 2020-ci ilin əvvəlindən etibarən COVİD-19 pandemiyasının dünyanın bir çox ölkəsində sürətlə yayılması Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərdi. hökuməti tərəfindən də çevik reaksiya ilə nəticələndi. Ölkə başçısının sərəncamı ilə pandemiyanın nəticələrinin öyrənilməsi, sosial izolasiya tədbirlərinin həyata keçirilməsi, iqtisadiyyata dəyə biləcək mənfi təsirlərin minimuma endirilməsi məqsədi ilə Nazirlər Kabineti yanında qərargah yaradıldı. Prezidentin pandemiyanın və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılmasına yönəldilmişdir. Prezidentin sərəncamına əsasən “Azərbaycan 2020:Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya mühüm vəzifə kimi müəyyən edilmişdir. Əsas vəzifələrdən biri qedyri neft sektorunun yüksək inkişaf sürətini qoruyub saxlamaqla onun ixrac imkanlarını genişləndirməkdir. Prezidentin 18 yanvar 2016 ci ildə imzaladığı sərəncamda qeyri neft sektorunun kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə dəstəklərinin verilməsi mexanizmi, ixracla bağlı tədqiqat inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilməsi məsələləri öz əksini tapıb. Burada iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyi məsələləri nəzərdə tutulur.

COVİD-19 pandemiyası nəticəsində iqtisadiyyatın müxtəlif sektorlarında yaranan problemlər xarici ticarət dövriyyəsinə də mənfi təsir göstərmişdir. Pandemiya zamanı biznesə və iqtisadiyyata artan qeyri-müəyyən gözləntilər əsas ticarət tərəfdaşlarının iqtisadiyyatlarının daralmasına, potensial sifarişlərin azalmasına səbəb olub. Mövcud vəziyyəti tənzimləmək məqsədilə Azərbaycan hökuməti qeyri-neft ixracının azalmasının qarşısının alınması məqsədilə stimullaşdırıcı və dəstəkləyici qərarlar qəbul edib. Qeyri-neft məhsullarının ixracına marağın artırılması məqsədilə beynəlxalq təcrübədə istifadə edilən malların ixrac qeydi ilə satışı mexanizminin vergi məcəlləsinə daxil edilməsi – qeyri-neft məhsullarının “ixrac qeydi ilə satışı” zamanı ƏDV-yə (0) dərəcə ilə cəlb olunması yeri istehsal məhsulunun qiymət üstünlüyünə malik olmasını şərtləndirəcəkdir (2). Qeyd etmək lazımdır ki, COVİD-19 pandemiyası dövründə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının diversifikasiyası məsələsi daha çox diqqət mərkəzindədir. Belə ki, Covid-19 pandemiyası nəticəsində yaranan ixrac daralmalarının qarşısının alınması istiqamətində dövlətin ilkin addımları ixracın stimullaşdırılması və dəstəklənməsinə yönəlib. İxracın diversifikasiyası olunması istiqamətində müsbət təsirləri olacaqdır. Xarici bazarlara inteqrasiya istiqamətində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahibkarların xərc yükünün yüksək olması qiymət rəqabətində uduzmasına səbəb olur. Dövlət tərəfindən göstəriləcək dəstək mövcud ixracın səngiməsinin qarşısını almaqla bərabər, qeyri-ənənəvi əmətəələrin xarici bazara çıxışını asanlaşdıracaqdır. Covid-19 pandemiyası dönəmində ixrac portfelində yer alan əmtəə və məhsul çeşidlərinin 2,5 faiz azalması xarici sifarişlərin azalması ilə əlaqədardır.

**Nəticə**

Bugün respublikada qeyri-neft sektorunu inkişaf etdirmək üçün milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadənin öyrənilməsi, Azərbaycanda iqtisadiyyatın inkişaf problemlərinin araşdırılması, milli iqtisadiyyatın diversifikasiyalaşdırılması imkanlarının təhlili, qeyri-neft sektorunun əsas göstəricilərinin təhlil edilməsi, qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsinin qanunvericilik bazasının mövcud vəziyyətinin təhlili, qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadənin yollarının müəyyən edilməsi, qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin öyrənilməsi olduqca vacibdir. Hazırkı şəraitdə qeyri-neft sektorunun mövcud vəziyyətinin təhlili əsasında bu sektorun potensialından istifadə istiqamətləri araşdırılmalı və zəif istifadə olunan istiqamətlər aşkar olunmalıdır. Bundan əlavə ölkənin xarici ticarət dövriyyəsi, onun ixracının strukturundakı problemlər müəyyənləşdirilməli və qeyri-neft sektorunun ixracı hesabına ölkə ixracının potensialının artırılması şərtləri və yolları müəyyən edilməlidir.Qeyri-neft sektorunun ixrac potensialının tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi məsələləri daima diqqətdə olmalıdır. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasına imkan verən prioritet istiqamətlər ciddi dəlillərlə müəyyənləşdirilməli və ixrac potensialından istifadənin tənzimlənməsi problemlərinin həlli üzrə təkliflər əsaslandırılmalıdır.



**Ədəbiyyat**

1.Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı,2016.-67s.
2.Azərbaycan Respublikasının Prezidentinin 18 yanvar 2016-cı il tarixli Sərəncamı.
3.Алесинская Т.В. Основы логистики.Общие вопросы логистического управления.Таганрог: Изд:ТРТУ, 2005, 121 с
4.Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatı 16 iyun 2021-ci il.
5.Əliyev Ş.T. ¨Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri¨ Bakı, ¨Elm və təhsil¨ 2012.
6.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2021.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Зибейда Ариф кызы Шакаралиева***

***Состояние и диверсификация ненефтяного сектора во время пандемии***

***Резюме***

*В ответ на глобальные вызовы позиции Азербайджана в мировой экономике будут усилены, и наша страна будет включена в группу стран с высоким уровнем доходов в результате привлечения инвестиций, свободной конкурентной среды, доступа к рынкам и развития человеческого капитала. Многие из этих мер в настоящее время находятся в процессе реализации. Разработана и внедрена группа механизмов государственной поддержки развития ненефтяного сектора. В частности, в целях развития регионов и поддержки сельхозпроизводителей реализованы крупные инфраструктурные проекты, оказана техническая поддержка через лизинг, налажена система подачи удобрений, введены в эксплуатацию склады, построены дороги, современные предприятия. Во время 19 пандемий были приняты меры по стимулированию экспорта. Несмотря на все это, ненефтяной сектор пока не смог поддерживать высокие темпы роста, значительно снизить зависимость страны от нефти и решить существующие проблемы с точки зрения конкурентоспособности. Для увеличения экспортного потенциала ненефтяного сектора, прежде всего, необходимо завершить процесс диверсификации и модификации самой национальной экономики, а также ускорить внедрение новых технологий. Кроме того, очень важно глубоко изучить ненефтяной сектор с учетом природных ресурсов страны и экономических факторов и объективно оценить его потенциал.*

***Ключевые слова:*** *ненефтяной сектор, пандемия COVID-19, экспортная ситуация, диверсификация экспорта, меры стимулирования.*



***Zibeyda Arif Shakaraliyeva***

***The state and diversification of the non-oil sector during the pandemic***

***Summary***

*In response to global challenges, Azerbaijan's position in the world economy will be strengthened and our country will be included in the group of high-income countries as a result of attracting investments, free competitive environment, market access and development of human capital. Many of these measures are currently in the process of implementation. A group of state support mechanisms for the development of the non-oil sector has been developed and implemented. In particular, in order to develop the regions and support agricultural producers, large infrastructure projects have been implemented, technical support has been provided through leasing, fertilizer supply system has been established, warehouses have been put into operation, roads have been built, modern enterprises have been put into operation. During the 19 pandemics, export stimulus measures were implemented. Despite all this, the non-oil sector has not yet been able to sustain a high growth rate, significantly reduce the country's dependence on oil, and solve its existing problems in terms of competitiveness. In order to increase the export potential of the non-oil sector, first of all, the process of diversification and modification of the national economy itself must be completed, and the innovation of new technologies must be accelerated. In addition, it is very important to study the non-oil sector in depth, taking into account the country's natural resources and economic factors, and to objectively assess its potential.*

***Keywords:*** *non-oil sector, COVID-19 pandemic, export situation, export diversification, stimulus measures*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.12.2021.***
***Çapa qəbul olunub: 23.12.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*